Azərbaycan Tibb Universiteti

"TƏSDİQ EDİRƏM"
III Daxili-xəstəliklər kafedrasının
müdiri: Ə.A.Hidayətov

İmza ___________15.02.2023

PEŞƏ XƏSTƏLİKLƏRİ

__fənni üzrə

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİ ÜÇÜN

İŞÇİ TƏDRİS PROQRAMI

(SİLLABUS)

| | |
|---|---|
| FƏNNİN KODU: | |
| FƏNNİN NÖVÜ: | Məcburi |
| FƏNNİN TƏDRİS SEMESTRİ: | 7 |
| FƏNNİN KREDİTİ: | 4 kredit |
| FƏNNİN TƏDRİS FORMASI: | Əyani |
| FƏNNİN TƏDRİS DİLİ: | Azərbaycan və rus |
| FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR: | Prof. Hidayətov Ə.A.<br>Prof. Musayev S.K.<br>Dos. Süleymanov Z.M.<br>Dos. Əlixanova İ.Ç.<br>Dos. Zeynalov F.M.<br>Ass. Qəmbərova T.Q.<br>Ass. Abdullayev F.M.<br>Ass. Verdiyev A.A.<br>Ass. Məcidova S.A.<br>Ass. Xəlilova Ü.A.<br>Ass. Əliyeva S.Ə.<br>Ass. Nəbiyev Ə.N. |

NÖMRƏLƏRİ: 012 -441-31-83, əlavə 211

E-MAİL:

**PREREKVİZİTLƏR**:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənlər: anatomiya, histologiya, fiziologiya, daxili xəstəliklərin propedevtikası.

**KOREKVİZİTLƏR**:

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də: patoloji fiziologiya, patoloji anatomiya, farmakologiya, farmakoterapiya, funksional diaqnostika tədris olunması zərurəti var.

**KURSUN TƏSVİRİ:**

Bu fənndə daxili xəstəliklərin etiologiyası, patogenezi, klinikası, ağırlaşmaları, differensial diaqnostikası, müayinə və müalicə prinsipləri geniş şərh edilir.

**KURSUN MƏQSƏDİ:**

"Peşə xəstəlikləri" fənninin əsas məqsədi tələbələrə peşə xəstəliklərin nazoloji formalarının etiologiya və patogenezini öyrətmək, terapevtik xəstələrin müayinə vərdişlərinin möhkəmləndirmək, daxili orqanların əsas xəstəliklərinin tipik formalarının kliniki təzahürləri haqda bilikləri artırmaq, tələbələrə sərbəst diaqnoz qoymaq üçün vərdişlərin öyrədilməsi, xəstəliklərin atipik və nadir rast gəlinən formaları ilə tanış olunması, müqayisəli diaqnoz metodlarına yiyələnməyi, sərbəst diaqnoz qoymağı, farmakoterapiyanı, təxirəsalınmaz terapevtik yardımın göstərilməsi, peşə xəstəliklər zamanı reabilitasiya, dispanserizasiya və həkim əmək ekspertizasının əsas prinsiplərinin öyrədilməsidir.

**KURSUN NƏTİCƏLƏRİ:**

Bu fənn tədris olunub qurtardıqdan sonra tələbələr peşə xəstəlikləri zamanı orqanların patologiyası olan xəstələrin laborator- instrumental müayinə planını tərtib etməyi, xəstəliklərin diaqnostikasında istifadə olunan laborator- instrumental nəticələrini düzgün qiymətləndirməyi bacarmalıdır.

**FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ:**

1. Peşə xəstəliklərinə giriş. Ağciyərlərin toz mənşəli peşə xəstəlikləri.
2. Vibrasiya xəstəliyi: etiologiya, patogenez, klinika, müalicə.
3. Kəskin və xroniki şüa xəstəliyi, kombinə olunmuş radiasiya zəhərlənmələri.
4. Qurğuşunla və civə ilə zəhərlənmə: etiologiya, patogenez, klinika, müalicə.
5. Manqanla və dəm qazı ilə zəhərlənmə: etiologiya, patogenez, klinika, müalicə.

**FƏNNİN MÖVZULARI:**

1.Peşə xəstəliklərinin mahiyyəti.

2. Ağciyərlərin toz mənşəli peşə xəstəlikləri. Pnevmokoniozlar. Toz mənşəli xroniki bronxitlər və peşə bronxial astması.

3. Vibrasiya xəstəliyi: etiologiya, patogenez, klinika, müalicə.

4. İnsan orqanizminə səs-küyün təsiri: etiologiya, patogenez, klinika, müalicə.

5.İstehsalatda yüksək və alçaq hərarətin insan orqanizminə təsiri. Kesson və dağ xəstəliyi: etiologiya, patogenez, klinika, müalicə.

6.Dayaq hərəki aparatının mikrotravmatizasiyası və fiziki gərginliklə əlaqədar peşə xəstəlikləri: etiologiya, patogenez, klinika, müalicə.

7.Benzol və onun üzvü birləşmələri ilə zəhərlənmə. Manqanla və dəm qazı ilə zəhərlənmə.

8. Qurğuşunla və civə ilə zəhərlənmə: etiologiya, patogenez, klinika, müalicə.

9. Pestisidlərlə zəhərlənmə: etiologiya, patogenez, klinika, müalicə.

10. Xroniki və kəskin şua xəstəliyi, kombinə olunmuş radiasiya zəhərlənmələri.

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə krediti toplamaq üçün lazımi 100 balın toplanması aşağıdakı kimi olacaq:

50 bal- imtahana qədər

O cümlədən:

10 bal - dərsə davamiyyət

10 bal – sərbəst iş

30 bal – seminar dərslərindən toplanacaq ballardır.

50 bal imtahanada toplanır!

Imtahan test üsulu ilə keçirilir.Test 1000-ə yaxın sualdan ibaətdir.

**QEYD:**

Imtahanda minimum 17 bal toplanmasa,imtahana qədər yığılan ballar toplanmır.İmtahanda və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| A - | "Əla" | - 91 – 100 |
| B - | "Çox yaxşı" | - 81 – 91 |
| C - | "Yaxşı" | - 71 – 80 |
| D - | "Kafi" | - 61 – 70 |
| E - | "Qənaətbəxş" | - 51 – 60 |
| F - | "Qeyri-kafi" | - 50 baldan aşağı |

**SƏRBƏST İŞ:**

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir.Hər tapşırığın yerinə yetirilməsi 1 balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada,word faylı formasında, həcmi 1-2 səhifə ( şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məzmunu olduğuna görə plagiat yolverilməzdir.

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmır.

Sərbəst işlərin nəticələri jurnalda yazılır.

**ƏDƏBİYYAT VƏ MATERİALLAR**

1. "Peşə xəstəlikləri" Ə.A.Hidayətov, A.A. Verdiyev, F.M.Abdullayev , F.M.Zeynalov, 2022
2. «Профессиональные болезни» Мухин Н.А., Фомин В.В., 2013

**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulumur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə yay peşə təcrübəsi nəzərdə tutulur.

Hazırladı: Kafedra müdiri: prof. Ə.A.Hidayətov

Tədris hissə müdiri: dos. İ.Ç.Əlixanova